https://doi.org/10.59849/3006-2403.2026.1.104

***Sevinc MİRZƏYEVA***
***AMEA Gəncə Bölməsi***
***ORCID ID: 0009-0009 8760 4635***
***E-mail: sevincmirzeyeva93@gmail.com***

# ŞAMAXI ƏDƏBİ MÜHİTİ VƏ NİZAMİ İRSİ

*Açar sözlər:* Nizami, ədalət, əlaqə, ideya, irs, yaradıcılıq

Azərbaycan ədəbiyyatının yaranması və formalaşması dövrlərindən etibarən özündən əvvəlki nəslin görkəmli simalarının formalaşdırdığı ənənələri, onların xidmətlərini ehtiramla xatırlamaq, onların yaratdığı yenilikləri mənimsəyərək daha da təkmilləşdirmək yüksək ali dəyər kimi yaşadılmış, təbliğ olunmuşdur. Klassik ədəbi ənənələrə sədaqət anlayışı da bu kontekstdə yaranıb formalaşmışdır. Məsələn, özündən sonrakı yüz illər ərzində ədəbi təsiri mövcud olan, yaşadılan dahi Nizaminin sənət ənənələri, həyata, ədəbiyyata, fəlsəfəyə estetik münasibəti yaşadılmış, daim diqqət mərkəzində olmuşdur.

Bəşəriyyət qarşısında qeyri-adi misssiyasını hər kəsdən əvvəl məhz özü dərk etdiyindən lap başlanğıcdan Nizami üzünü yalnız Azərbaycana deyil, bütün dünyaya tutmuşdu. O, sırf milli şair olduğunu, öz xalqına və yurduna məxsusluğunu bütün incəlikləriylə dərk etməklə yanaşı, həm də bütöv Şərqin və dünyanın ədibi olmaq məsuliyyətinin ona İlahi tapşırıq kimi yazıldığına inanırdı. İnanmasaydı və məhz belə düşünməsəydi, onun əsərlərinin daxili coğrafiyası da bu qədər geniş, elə Nizami çağındakı dünya boyda olmazdı [3, s.7].

Nizami Gəncəvi Azərbaycan ədəbiyyatında yalnız klassik şair kimi deyil, həm də insanlıq və humanizm ideyalarının daşıyıcısı kimi böyük əhəmiyyətə malikdir. Onun əsərləri təkcə Gəncə və Azərbaycanın deyil, bütün Şərq ədəbiyyatının inkişafına güclü təsir göstərmişdir.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı əsrlər boyu elm, sənət və ədəbiyyatın inkişaf etdiyi mühüm şəhərlərdən hesab edilmişdir. Tarixi İpək yolu üzərində yerləşən bu şəhər yalnız iqtisadi və siyasi əhəmiyyəti ilə deyil, həm də zəngin ədəbi mühiti ilə tanınmışdır. Şamaxıda formalaşan ədəbi ənənələr Azərbaycan klassik ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, bir çox görkəmli şair və alimlərin yetişməsinə şərait yaratmışdır. Bu ədəbi mühitin formalaşmasında və inkişafında isə Nizami Gəncəvi irsi xüsusi yer tutur. Bu mühit həm Nizaminin yaradıcılığından ilhamlanan sənətkarların fəaliyyəti, həm də onun ədəbi ənənələrinin davam etdirilməsi baxımından mühümdür. Şamaxı — Azərbaycanın qədim mədəniyyət və ədəbiyyat mərkəzlərindən biri kimi — klassik Şərq poeziyasının inkişafında mühüm rol oynamış, burada formalaşan ədəbi mühit Nizami irsinə həm ehtiramla yanaşmış, həm də onu yaradıcı şəkildə davam etdirmişdir.

Orta əsrlərdə Şirvanşahlar dövləti dövründə Şamaxı ölkənin əsas elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Saraylarda təşkil edilən ədəbi məclislər, mədrəsələrdə aparılan elmi müzakirələr və poeziyaya verilən yüksək qiymət şəhərdə güclü ədəbi mühitin yaranmasına səbəb olmuşdur. Burada ərəb, fars və türk dillərində əsərlər yazılmış, klassik Şərq poeziyasının ənənələri inkişaf etdirilmişdir. Şamaxı mühitində qəzəl, qəsidə, məsnəvi və fəlsəfi lirika geniş yayılmışdır.

Nizami irsi dövrün ideoloji meyillərini, istək və arzularını aydınlaşdırmaq üçün zəngin, təkzib olunmaz, faktlar, dəlillər verdiyi üçün İntibaha həsr olunmuş tədqiqatlar bir qayda olaraq, Nizami yaradıcılığı üzərində qurulur, onun poeziyasından qidalanır [2, s. 5].

Nizami Gəncəvi Şərq ədəbiyyatında böyük təsir gücünə malik olan bir şairdir. Onun "Xəmsə"si təkcə Azərbaycanın deyil, bütün Şərq dünyasının poeziyasına istiqamət verib. Şamaxı ədəbi mühiti isə bu təsiri öz yaradıcılığında hiss etdirən ilk ədəbi mühitlərdən biri olub:

Nizaminin məhəbbət, hikmət, ədalət, insanpərvərlik və elmə çağırış motivləri Şamaxı şairlərinin əsərlərində də əks olunub. Məsnəvi, qəzəl, qəsidə və rübai janrları vasitəsilə Nizami ənənələri davam etdirilib. Şamaxı şairləri də Nizami kimi poetik obrazlılığa, fəlsəfi dərinliyə və zəngin leksikaya önəm veriblər.

Bu ədəbi mühitin ən görkəmli nümayəndələrindən biri Xaqani Şirvani olmuşdur. O, zəngin poetik dili, dərin fəlsəfi fikirləri və yüksək sənətkarlıq xüsusiyyətləri ilə Şərq ədəbiyyatında mühüm yer qazanmışdır. Xaqaninin yaradıcılığında vətən sevgisi, insan taleyi, ədalət və mənəviyyat mövzuları xüsusi yer tutur. Sonrakı dövrlərdə isə Seyid Əzim Şirvani Şamaxı ədəbi mühitinin maarifçi ənənələrini davam etdirmiş, realist poeziyanın inkişafına böyük töhfələr vermişdir.

Şamaxı ədəbi mühitinin inkişafında Nizami Gəncəvi yaradıcılığının təsiri danılmazdır. Nizami Şamaxıda yaşamasa da, onun əsərləri burada fəaliyyət göstərən şairlər üçün böyük ilham mənbəyinə çevrilmişdir. Nizaminin humanizmə əsaslanan fəlsəfi düşüncələri, insanı uca varlıq kimi təqdim etməsi, ədalət və mənəviyyat ideyaları Şamaxı şairlərinin yaradıcılığında öz əksini tapmışdır. Onun poetik dili və obraz yaratmaq bacarığı klassik Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir.

Şamaxı ədəbi mühiti ilə Nizami Gəncəvi arasında olan mənəvi və ədəbi bağ Azərbaycan klassik poeziyasının ən gözəl nümunələrindən biridir. Bu mühit Nizami irsini qoruyub saxlamaqla yanaşı, onu yeni poetik çalarlarla zənginləşdirərək, gələcək nəsillərə ötürmək missiyasını da yerinə yetirib.

Şamaxılı şair və yazıçılar Nizami irsini yüksək qiymətləndirərək öz yaradıcılıqlarında ondan təsirlənmişlər. Məsələn, Seyid Əzim Şirvani Nizaminin humanist ideyalarını öz şeirlərində əks etdirərək insanın mənəvi dəyərlərinə diqqət yetirmişdir. Onun əsərlərində ədalət, insanlıq və təbiətə bağlılıq mövzuları Nizami poeziyası ilə yaxınlıq təşkil edir.

Şamaxı ədəbi mühitinin görkəmli nümayəndələrindən biri olan Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Şairin yaradıcılığında maarifçilik, humanizm və mənəvi tərbiyə məsələləri əsas yer tutur. Bu xüsusiyyətlər isə Nizami yaradıcılığı ilə səsləşir.

Seyid Əzim insanı mənəvi kamilliyə çağırır, cəhaləti və savadsızlığı tənqid edirdi. Nizami kimi o da elmə yüksək qiymət verir, insanın tərəqqisini maariflənmədə görürdü. Şairin didaktik şeirlərində klassik poeziyanın təsiri, xüsusilə Nizaminin hikmətli ifadə tərzi hiss olunur.

Təsadüfi deyil ki, N.Gəncəvinin məqbərəsi ərazidə baş verən müharibələr və təbii fəlakətlər nəticəsində dağıntıya məruz qalarkən ona ilk reaksiya verən maarifçilərdən biri S.Ə.Şirvani olmueşdur. Belə ki, şair Tiflisə gedərkən yolu Gəncədə keçir və şeyx Nizaminin dağılmış məzarını ziyarət edir və ona bir rübai həsr edir:

Ey şeyx Nizami ey nizamı dağılan,
Ey Gəncədə izzü-ehtişamı dağılan,
Olmuşmu səninlə mən kim aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan?

Bu məktəbin ən böyük nümayəndəsi olan S.Ə.Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının əsas simalarından biri olmuş, qəzəl ustadı kimi tanınmışdır. Qeyd edim ki, yazıçı-ədəbiyyatşünas Əzizə Cəfərzadə “Aləmdə səsim var mənim” romanında Seyid Əzim Şirvaninin həyatı və dövrünü mövzu alaraq janrın ən dəyərli nümunələrindən birini

yaratmışdır. Müəllif balaca Sabirin məktəbə getməsini və burada Seyid Əzimin sayəsində dünyagörüşünün, ədəbi zövqünün formalaşmasını xüsusi qabardır. Müəllif həmçinin S.Əzimin Sabirin taleyinə təsiri ilə yanaşı Şirvan ədəbi mühitində və Azərbaycan ədəbiyyatında yerini qeyd etmişdir. Sabirin hələ uşaq ikən ədəbiyyata, sözə və elmə olan marağı oxucunun diqqətinə çatdırılmış, onu yazmağa sövq edən hadisələr, dövrün reallıqları epik planda təsvir olunmuşdur. Əsərdə Seyid Əzim ədəbiyyata olan böyük marağına görə Sabirə dahi Nizaminin "Xəmsə"sini bağışlayır.

Kitabın bağışlanması ilə bağlı əhvalat belədir: Sabir bir şeir yazıb Seyid Əzimə göndərir, Seyid Əzim şeiri oxuyur və Sabirə: "qəzəlimin birinə yazdığın məlih və şirin cavab çox xoşuma gəldi" deyir. Həmin vaxt başqa bir hədiyyəsi olmadığı üçün, "Xəmsəyi-Nizami"ni Sabirə hədiyyə edir və üzərinə "Yadigari-ustadanə olmaq şərtilə qəbul edəsiniz və şairlikdə tərəqqi etmənizi arzu edirəm" sözlərini yazır.

Bu əsər Sabirin dünyagörüşünə, düşüncələrinə güclü təsir edir. Nizaminin obrazları və süjetləri Sabiri düşünməyə, yollar axtarmağa sövq edir. Seyid Əzimin 53 yaşında vəfatı Sabiri sarsıdır. Vurğulayım ki, ustadı Seyid Əzimin vaxtsız vəfatı həm müəllifin "Aləmdə səsim var mənim" romanında, həm də Sabir obrazı yaradılan tarixi mövzulu, müxtəlif janrlı bədii nümunələrdə təfsilatlı şəkildə, tarixi reallıqlara yaxın şəkildə təqdim olunur [1, s. 38].

Klassik irsə bağlı, eyni zamanda maarifçi ideyaları ilə tanınan Seyid Əzim, həm poetik formasına, həm də məzmununa görə Nizami ruhunda əsərlər yazmışdır. Onun humanist ideyaları və cəmiyyətə yönəlmiş fikirləri Nizami ilə səsləşir.

Nizami və Seyid Əzim Şirvanı yaradıcılığından bəhrələnən, Şamaxı ədəbi məktəbinin digər bir nümayəndəsi olan görkəmli demokratik ədib, yenitipli satiranın banisi Mirzə Ələkbər Sabir cəmiyyətin sosial problemlərini və ədalətsizliyi ifşa etmək üçün klassik ədəbi üsullara müraciət etmişdir. Nizaminin əsərlərindəki ədalət və insanlıq mesajları Sabirin ictimai-satirik mövqeyi ilə uzlaşır. Sabirin satirik şeirləri öz zamanının sosial ədalətsizliyinə qarşı mübarizəyə yönəlmişdi.

Nizami Gəncəvi ilə Mirzə Ələkbər Sabiri bir-birinə bağlayan bir neçə mühüm ortaq cəhət var ki, onlar fərqli dövrlərdə yaşasalar da hər iki böyük şəxsiyyət Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Onları birləşdirən əsas nöqtələr kimi demək olar ki, xalqın dərdlərinə, ictimai problemlərə həssas yanaşmışlar.

Nizami Gəncəvi öz əsərlərində ədalət, bərabərlik, elmin və biliyin önəmi kimi mövzulara toxunur. Onun hökmdarlara nəsihətləri, cəmiyyətin islahı ilə bağlı fikirləri "Xəmsə"də əksini tapır və burada bədii qəhrəmanlar vasitəsilə ideal insan modeli təqdim edir.

Mirzə Ələkbər Sabir isə satira ustası kimi dövrünün sosial ədalətsizliklərini, rüşvətxorluğu, nadanlığı və din adı ilə edilən saxtakarlıqları ifşa edirdi. "Hophopnamə" bu baxımdan əsl ictimai güzgüdür.

Hər iki şair cəmiyyətin eybəcərliklərini göstərməyi və insanlara doğru yolu göstərməyi qarşıya məqsəd qoymuşdur. Həmçinin maarifçilik ideyaları və insana, elmə yüksək dəyər vermişlər. Belə ki, Nizami elmə, ağıla, təhsilə çox yüksək dəyər verirdi. Onun qəhrəmanları savadlı, düşüncəli, ədalətli insanlardır. Sabir də maarifçiliyin güclü təbliğatçısı idi. O, savadsızlığı, fanatizmi və geriliyi kəskin tənqid edir, xalqı elmə, məktəbə, təhsilə çağırırdı. Hər ikisi cəmiyyətin tərəqqisinin elm və təhsil yolu ilə mümkün olduğunu düşünürdülər.

Nizami, Şərq ədəbiyyatının fəlsəfi və mənəvi dəyərlərini bədii şəkildə əks etdirirdi, həmçinin Azərbaycan mədəniyyətinin dərin qatlarını öz əsərlərində yaşadırdı. Sabir isə xalqın dili ilə yazaraq milli oyanışın güclənməsinə təkan verirdi. Onun satirası həm də milli özünüdərkə xidmət edirdi. Hər ikisi milli düşüncəni, öz dəyərlərini qoruyub təbliğ etmişlər.

Dil və üslub yenilikləri baxımdan qeyd etmək olar ki, Nizami klassik şeirdə yeni süjetlər və fəlsəfi dərindən düşünülmüş mövzular gətirmişdi. O, poetik dili yüksək bədii səviyyəyə çatdırmışdı.Sabir isə xalq dilinə yaxın, sadə və anlaşıqlı dildə yazaraq ədəbiyyatı xalqla daha sıx bağladı. Hər biri dövrün ədəbi dilini zənginləşdirdi və yenilik gətirdi.

Həmçinin Nizami Gəncəvi ilə Mirzə Ələkbər Sabiri bağlayan əsas cəhətlər — ictimai mövqe, maarifçilik ideyaları, xalqın tərəqqisinə xidmət etmələri, insana, ədalətə və elmə verdikləri dəyər və ədəbiyyat vasitəsilə cəmiyyətə təsir etmə istəkləridir.

Şamaxı şairləri və Nizami ənənəsi olaraq qeyd etmək olar ki, Şamaxıda doğulmuş və burada fəaliyyət göstərmiş bir sıra şairlər Nizami yaradıcılığından təsirlənmiş, onun ideyalarını davam etdirmişlər: Şamaxı ədəbi mühiti yalnız Nizami irsindən faydalanmayıb, həm də bu irsin yaşadılmasında mühüm rol oynayıb; Nizami mövzularına yenidən müraciət edilib, onun poetik üslubu təbliğ olunub,Nizaminin təbliğ etdiyi dəyərlər — ədalət, elm, sevgi, insanlıq — Şamaxı poeziyasının əsas ideya dayaq nöqtələrindən biri olub.

Abbas Səhhət və Məhəmməd Hadi kimi şamaxılı sənətkarlar da Nizami poeziyasını tədqiq etmiş, onun ideyalarını öz yazılarında təbliğ etmişlər. Bu sənətkarlar Nizami yaradıcılığını yalnız estetik dəyər kimi deyil, həm də mənəvi və əxlaqi bir məktəb olaraq qəbul etmişlər.

Mirzə Ələkbər Sabir isə satirik yaradıcılığı ilə tanınsa da, Nizami irsindən bəhrələnərək, cəmiyyətin sosial problemlərini və ədalətsizliyi ifşa etmək üçün klassik ədəbi üsullara müraciət etmişdir. Nizaminin əsərlərindəki ədalət və insanlıq mesajları Sabirin ictimai-satirik mövqeyi ilə uzlaşır.

Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi yalnız klassik şair kimi deyil, həm də insanlıq və humanizm ideyalarının daşıyıcısı kimi böyük əhəmiyyətə malikdir. Onun əsərləri təkcə Gəncə və Azərbaycanın deyil, bütün Şərq ədəbiyyatının inkişafına güclü təsir göstərmişdir. Nizami yaradıcılığı Şamaxı bölgəsinin sənətkarları üçün də ilham mənbəyi olmuşdur.

Mirzə Ələkbər Sabir Azərbaycan satirik poeziyasının zirvəsi hesab olunur. Sabir daha çox realist və satirik üslubu ilə seçilsə də, onun yaradıcılığında klassik Şərq ədəbiyyatının izləri açıq görünür.

Sabir cəmiyyətin sosial problemlərini, ədalətsizliyi və savadsızlığı tənqid edərkən Nizaminin ədalət ideyasına yaxın mövqe nümayiş etdirirdi. O, xalqın tərəqqisini elm və maarifdə görürdü ki, bu da Nizami düşüncəsinin davamı kimi qiymətləndirilə bilər.

Abbas Səhhət və Məhəmməd Hadi kimi Şamaxılı sənətkarlar da Nizami poeziyasını tədqiq etmiş, onun ideyalarını öz yazılarında təbliğ etmişlər. Bu sənətkarlar Nizami yaradıcılığını yalnız estetik dəyər kimi deyil, həm də mənəvi və əxlaqi bir məktəb olaraq qəbul etmişlər.

Şamaxı ədəbi mühitinin digər yetirmələrindən biri Abbas Səhhət klassik Azərbaycan ədəbiyyatının dəyərlərini yeni dövrün tələbləri ilə birləşdirən sənətkarlardan olmuşdur. O, Nizami irsini yüksək qiymətləndirmiş, Şərq poeziyasının humanist ənənələrini öz yaradıcılığında davam etdirmişdir.

Abbas Səhhət insan sevgisini, vətənpərvərlik hissini və mənəvi saflığı əsas ideya kimi təqdim edirdi. Bu xüsusiyyətlər Nizaminin əsərlərində də mühüm yer tutur. Şair klassik irsin qorunmasını milli-mədəni inkişafın vacib şərti hesab edirdi.

Məhəmməd Hadi romantik poeziyanın tanınmış nümayəndələrindən biridir. Onun əsərlərində azadlıq, insan taleyi və mənəvi iztirab mövzuları geniş yer tutur. Hadi klassik Şərq poeziyasının, xüsusilə Nizami fəlsəfəsinin təsiri altında formalaşmışdır.

Milli, bəşəri və fərdi "mən" deyəndə dünyanı nəzərdə tutan, bütünlükdə xalq, bütünlükdə millət adından danışa romantik şair siyasi və iqtisadi cinahlara, dini, irqi və milli sərhədlərə parçalanmayan aləmi təkcə uzaqda, zirvədə, asimanda xəyala gətirə bilirdi [5, s. 8].

Şair insanın daxili aləmini və mənəvi axtarışlarını poetik şəkildə ifadə etmişdir. Bu baxımdan onun yaradıcılığı Nizaminin fəlsəfi-humanist ənənələrinin davamı kimi qiymətləndirilə bilər.

Nəticə olaraq, Şamaxı ədəbi mühiti Azərbaycan mədəniyyət tarixində xüsusi yer tutur. Bu mühitin formalaşması və inkişafında Nizami Gəncəvi irsi mühüm rol oynamış, klassik poeziyanın ideya və sənət xüsusiyyətləri Şamaxı şairlərinin yaradıcılığında davam etdirilmişdir. Şamaxı və Nizami irsi Azərbaycan xalqının zəngin mənəvi dəyərlərinin və ədəbi ənənələrinin parlaq nümunəsi kimi bu gün də öz əhəmiyyətini qorumaqdadır.

Nizami Gəncəvi yalnız Azərbaycanın deyil, Şamaxı kimi bölgələrin də sənətkarlarını dərin mənəvi təsirə məruz qoymuşdur. Şamaxılı sənətkarların əsərlərində Nizami irsinin əks olunması onun Azərbaycan ədəbiyyatındakı əvəzolunmaz yerini bir daha təsdiqləyir.

Nizami irsi bu gün də Şamaxıda yaşadılır və təbliğ olunur. Şamaxı ədəbi mühiti klassik Azərbaycan ədəbiyyatının qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Əzizə Cəfərzadə. “Aləmdə səsim var mənim” – Gənclik, Bakı -1978
2. Xəlil Yusifli. “Nizami və Şərq intibahı” - “Elm və Təhsil”, Bakı-2023
3. İlahə Hacıyeva. Anadilli ədəbiyyatda “Xəmsə” ənənəsi – “Elm və Təhsil” Bakı-2023
4. İsa Həbibbəyli. “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” – Elm nəşriyyatı, Bakı-2021
5. Məhəmməd Hadi. “Seçilmiş əsələri” - “Şərq-Qərb”, Bakı-2005.

***Севиндж МИРЗАЕВА***

## ЛИТЕРАТУРНАЯ СРЕДА ШЕМАХИ И НАСЛЕДИЕ НИЗАМИ
## *РЕЗЮМЕ*

*Ключевые слова*: Низами, справедливость, связь, идея, наследие, творчество

Уважение к классическому литературному наследию и верность литературным традициям всегда занимали важное место в азербайджанской литературе. Одним из самых ярких представителей этой традиции является **Низами Гянджеви.** Он был не только великим азербайджанским поэтом, но и выдающимся деятелем всей восточной литературы. В своих произведениях Низами пропагандировал идеи гуманизма, справедливости, знания, нравственности и человечности, оказав огромное влияние на последующие поколения писателей и поэтов.

**Шемаха,** один из древнейших культурных центров Азербайджана, на протяжении веков была важным очагом науки, искусства и литературы. Сформировавшаяся здесь литературная среда сохраняла традиции классической восточной поэзии и творчески продолжала наследие Низами. Поэты и писатели Шемахинской литературной школы вдохновлялись его произведениями и отражали его гуманистические и философские идеи в собственном творчестве.

Среди наиболее известных представителей этой литературной среды были **Хагани Ширвани, Сеид Азим Ширвани, Мирза Алекпер Сабир, Аббас Саххат** и **Мухаммед Хади.** Они продолжили литературные традиции Низами и внесли значительный вклад в развитие азербайджанской литературы. Особое место занимает Сеид Азим Ширвани, который высоко ценил наследие Низами, посвятил рубаи его

разрушенной усыпальнице и сыграл важную роль в формировании мировоззрения Мирзы Алекпера Сабира, подарив ему «Хамсу» Низами.

Мирза Алекпер Сабир продолжил идеи Низами о справедливости, просвещении и гуманизме в своей сатирической поэзии. Обличая общественные пороки и выступая за образование народа, он развивал многие идеи, заложенные в творчестве Низами. Аббас Саххат и Мухаммед Хади также рассматривали наследие Низами как нравственную и духовную школу, адаптируя его идеи к требованиям своей эпохи.

Таким образом, наследие Низами Гянджеви сыграло важную роль в формировании и развитии Шемахинской литературной среды. В свою очередь, эта литературная школа способствовала сохранению и передаче его идей следующим поколениям. Связь между творчеством Низами и Шемахинской литературной традицией является ярким свидетельством богатства, преемственности и устойчивого развития азербайджанской литературы.

***Sevinc MIRZAYEVA***

## THE LITERARY ENVIRONMENT OF SHAMAKHI AND NIZAMI'S HERITAGE

***SUMMARY***

*Keywords:* Nizami, justice, connection, idea, heritage, creativity

Respect for classical literary heritage and loyalty to literary traditions have always been important values in Azerbaijani literature. One of the brightest examples of this tradition is the work of Nizami Ganjavi. He was not only a great Azerbaijani poet but also an influential figure in the entire Eastern literary world. Through his works, he promoted the ideals of humanism, justice, knowledge, morality, and compassion, leaving a profound impact on future generations of writers.

Shamakhi, one of Azerbaijan’s oldest cultural centers, has long been known for its rich literary environment. The literary school that developed there preserved the traditions of classical Eastern poetry and creatively continued the legacy of Nizami. Poets and writers of the Shamakhi literary circle drew inspiration from his works and reflected his humanistic and philosophical ideas in their own creations.

Prominent representatives of this literary environment, including Khagani Shirvani, Seyid Azim Shirvani, Mirza Alakbar Sabir, Abbas Sahhat, and Mahammad Hadi, carried forward Nizami’s literary traditions. Seyid Azim Shirvani, in particular, showed great respect for Nizami’s heritage and expressed this admiration in a rubai dedicated to the poet’s damaged mausoleum. He also played a significant role in the intellectual development of Mirza Alakbar Sabir by presenting him with a copy of Nizami’s *Khamsa*.

Mirza Alakbar Sabir continued Nizami’s ideals of justice, education, and humanity through his satirical works. By criticizing social problems and promoting enlightenment, he reflected many of the values found in Nizami’s poetry. Likewise, Abbas Sahhat and Mahammad Hadi regarded Nizami’s творчество as a moral and spiritual school and adapted his ideas to the needs of their own era.

In conclusion, the legacy of Nizami Ganjavi played a crucial role in the formation and development of the Shamakhi literary environment. At the same time, this literary tradition helped preserve and transmit Nizami’s ideas to future generations. This close connection between Nizami’s heritage and the Shamakhi literary school is a significant example of the richness, continuity, and enduring influence of Azerbaijani literature.

***Daxil oldu: 20.05.2026-cı il***